**UOT 792.072**

**Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənət Universiteti**
**magistrant**
**Lamiyyə Ehtibar qızı İsrafilova**
**E-mail: lamka-f89@mail.ru**

# PORTRET JANRININ TEATRŞÜNASLIQ ELMİNDƏ YERİ

**Xülasə:** Məqalə Azərbaycan teatrşünaslığında portret janrının mövcud vəziyyətindən, tutduğu yerdən bəhs edir. Müəllif milli teatr tariximizi izləyərək, teatr salnaməmizdə xüsusi rol oynayan sənətkarlar haqqında yazılmış portret məqalə və monoqrafiyaları araşdırmaqla teatrşünaslığımızda portret janrının keçdiyi mərhələləri üzə çıxarmağa, inkişaf mənzərəsini yaratmağa çalışır.

**Açar sözlər:** Azərbaycan teatrı, teatrşünaslıq, portret, məqalə, monoqrafiya, aktyor, rejissor.

Ədəbiyyat və incəsənətin müxtəlif növlərində, həmçinin bu sahələri tədqiq edən ədəbiyyatşünaslıqda, sənətşünaslıqda, musiqişünaslıqda, kinoşünaslıqda, teatrşünaslıqda portret janrının çox sayda nümunələrinə rast gəlmək mümkündür. Həm təsviri və dekorativ tətbiqi sənət, həm də ədəbiyyat ətrafdakı reallığı modelləşdirməklə, lakin bunu müəyyən sənət növünə xas olan bədii vasitələrdən, müxtəlif üsullardan istifadə etməklə canlandırır. Ədəbi əsər və rəsmlərdəki portretlər arasındakı əlaqələr, oxşar və fərqli cəhətlər, yaradıcı şəxsiyyətlərin insani keyfiyyətləri və sənətkarlıq xüsusiyyətləri həm ədəbiyyatşünaslıq, həm də sənətşünaslıq elmi üçün böyük maraq kəsb edir.

Portreti yalnız personajın xarici görünüşünün obrazı, onun davranış tərzi, geyimi, jestləri və s. görə dəyərləndirmək olmaz. Portretin tərifi "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə bu şəkildə verilmişdir: "Portret – insanın zahiri görkəminin, simasının, geyiminin, danışıq tərzinin, hisslərinin bədii təsviridir" [...]. Bədii əsərdə portret insan obrazlarının, xarakterlərin müfəssəl, canlı təcəssümüdür. İncəsənətin, xüsusi ilə təsviri-incəsənətin ən qədim janrlarından biri olan portret janrı rəssamlıqda obrazın kətan və kağız üzərinə köçürülməsi, ədəbiyyatda obrazın daxili və xarici aləminin inikası, teatrşünaslıqda isə aktyor və rejissor şəxsiyyətlərinin fərdi, yaradıcılıq xüsusiyyətlərinin təsvirini nəzərdə tutur.

Sənətşünaslıq elminin bir qolu olan teatrşünaslıqda portret janrının özünəməxsus yeri var. Portret janrı teatrşünaslıqda ayrı-ayrı sənət adamlarının həyat və yaradıcılığının tədqiqi baxımından əhəmiyyətlidir. Teatrşünaslıqdakı portret janrı teatrın və ədəbiyyatın birləşdiyi bir sahədir. Bu janr sənətçinin xarakterini, düşüncələrini təsvir edərək, onun daxili dünyasını, həyatını və ən əsası yaradıcılıq xüsusiyyətlərini əks etdirir. Müəllif sənətçinin daxili aləminin xüsusiyyətlərini, yaradıcılıq, ifaçılıq keyfiyyətlərini təsvir edərək onun şəxsiyyətinin bütün amillərini yazıya köçürür. Bir sözlə, teatrşünaslıqda portret janrı sənətçinin yazılı təsviri və ya

təhlili ilə onun fiziki görünüşünü, xarakterini, psixoloji vəziyyətini, sosial mühitini, həmçinin onun yaradıcılığının izlənməsini yerinə yetirir. Portret janrında yazılan məqalədə xarici görünüş və xarakter xüsusiyyətlərini təsvir etməklə kifayətlənmək olmaz. Müəllif sənətçinin yaradıcılığına nəzər yetirməklə, onun yaratdığı obrazları təhlil edərək oxucuda onun həm xarakter xüsusiyyətlərini, həm də yaradıcılıq məharətini açıb göstərməyi bacarmalıdır. Teatrşünaslıqda portret janrında müəllif bilavasitə yaradıcı şəxsin xarakterini, hisslərini və dünyagörüşünü yansıdan monoloqlar, dialoqlar və ya səhnə hərəkətləri vasitəsi ilə yazını zənginləşidirməyi qarşısına məqsəd qoyduqda və bütün bunlar vəhdət şəklində əks olunduqda, portret məqalə tam şəkildə əhatəli, orijinal, maraqlı olur. Zaman ötdükcə teatr sənəti və teatrşünaslıq elminin meydana gəlməsi və inkişafı, portret janrının yaranmasını sürətləndirdi.

Azərbaycan teatrşünaslığında portret janrının yaranması, inkişafı və müasir dövrlə səsləşməsi müəyyən mərhələlərə bölünür. 1873-cü ildə Azərbaycanda peşəkar teatrın yaranması ilə dövri mətbuatda tamaşalar haqqında qısa, məlumat xarakterli məqalələr çap olunmağa başladı. O dövrün tamaşalarında həm aktyor, həm dramaturq, həm də rejissor kimi iştirak edən ziyalıların fəaliyyəti, mövcud cəmiyyət tərəfindən birmənalı qarşılanmasa belə, onlar teatr mədəniyyətini inkişaf etdirmək, xalqın dünyagörüşünə təsir etmək, onu maarifləndirmək yolunda fədakarlıq göstərərək, bütün irili-xırdalı çətinliklərin öhdəsindən gəlməyi bacardılar. Müxtəlif problemlərlə üzləşən teatr fədailəri yazıb-yaratmaqdan usanmadılar. Bu dövrdə teatr tənqidi də formalaşmağa başladı. Teatr tamaşalarından bəhs edən bəsit məqalə və resenziyalarda aktyorların oyunu haqqında qısa, lakonik fikirlər yazılır, dövri mətbuatda artıq teatr sənətinə aid diqqətçəkən məqalələr dərc edilirdi. Teatr sənətinin yüksəlişi ilə yanaşı, teatr tənqidi də inkişaf edir, məlumat xarakterli kiçik məqalələr getdikcə tamaşanın təhlilinə aid resenziyalarla əvəz olunurdu.

Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Cəfər Cabbarlı kimi klassiklərin açdığı cığırla Cəfər Cəfərov, Mahmud Allahverdiyev, İnqilab Kərimov, Ədilə Əliyeva, Cabir Səfərov, İlham Rəhimli, Məryəm Əlizadə, İsrafil İsrafilov, Aydın Talıbzadə kimi teatrşünaslar addımlamağa başladılar. Maarifçi-ziyalılar teatr sənətinin inkişafı yolunda həm tamaşaların təşkilatçılığı, hazırlanması ilə məşğul olur, həm də aktyor, rejissor və müəllif kimi çıxış edirdilər.

Azərbaycan teatr sənətində misilsiz xidmətləri olan M.F.Axundzadə, N.Nərimanov, Ə.Haqverdiyev, C.Cabbarlı kimi dramaturqlarla birgə, Firudin bəy Köçərli, Hüseyn Minasazov, Məmmədsadıx Axundov, Səfərəli Vəlibəyov, Eynəli Sultanov, Haşımbəy Vəzirov, Qurbanəli Şərifov, Mehdibəy Hacınski, Hacı İbrahim Qasımov, Camo Hacınski, Əziz Şərif və digər ziyalılar dövri mətbuatda teatr tamaşaları haqqında tez-tez kiçik həcmli məqalələr yazırdılar. İlk teatr tənqidçiləri Hacı İbrahim Qasımov, Mehdi bəy Hacınski, Eynəli Sultanov, Sultan
Məcid Qənizadə, Camo Hacınski və başqaları tamaşalar haqqında mətbuat səhifələrində qısa xülasəli yazılarla çıxış edirdilər.

Ədiblərimizdən Əbdürrəhim bəy Haqverdiyev və Cəfər Cabbarlının teatr tamaşaları haqqında yazıları, aktyorlar haqqında qeydləri portret janrının ilkin nümunələrindən sayıla bilər. Ə.Haqverdiyevin “Abbas Mirzə Şərifzadə”, “Mirzə Fətəli Axundov”, “Maksim Qorki” haqqında qələmə aldığı məqalələrdə müəllif sırf onların yaradıcılığı haqqında məlumat vermişdir. Abbas Mirzə Şərifzadə haqqında olan qısa məqalədə türk aktyorunun yaradıcılığı, xarakterik keyfiyyətləri, oynadığı rolların adları yazılmışdır. M.F.Axundova həsr etdiyi məqalədə isə adından bəlli olduğu kimi dramaturqun həyatı, yaradıcılığı barəsində məlumatlar üstünlük təşkil etmişdir.

Qeyd olunduğu kimi, Cəfər Cabbarlının da teatr xadimləri haqqında məqalələri çap olunmuşdur. Belə ki, onun yazdığı “Daraplı və Anaplı” (Rza Darablı, Əbülhəsən Anaplı), “Abbas Mirzə Şərifzadə”, “Mizə Fətəli Axundzadə”, “V.A.Uğrumi”, “Sidqi Ruhulla” və s. məqalələri işıq üzü görmüşdür. Dövrünün tanınmış sənətçiləri barəsində yazan C.Cabbarlı onların əsasən yaradıcılıq yoluna, oynadıqları obrazlara, sənətdə göstərdikləri xidmətlərə toxunmuşdur. 1920-1930-cu illərdə ziyalılarımızın aktyor, rejissor və dramaturqlar haqqında yazdıqları kiçik portret məqalələri teatr tarixinə nəzər yetirmək, onun inkişafını izləmək üçün qiymətli bir mənbədir. Bu yazılarda teatr sənəti ilə məşğul olan sənətçilərin o dövrdəki teatr ənənələrinə aid səhnə fəaliyyətlərinə nəzər yetirilmişdir.

1950-ci illərdən etibarən teatrşünaslıqda, eləcə də portret janrda yaradıcı şəxsin sənətkarlıq xüsusiyyətlərinin estetik qiymətləndirilməsi önə çıxır. Belə ki, aktyorların ifaçılıq manerası, rejissorların təfsiri və dramaturqların yazı üslubu portret janrında xüsusi diqqət yetirilən vacib məqamlara çevrilir. Getdikcə bu xüsusiyyətlər teatrşünaslığın nəzəri-estetik prinsipləri kimi formalaşır. Portret janrı özündə teatrşünaslıq elminin bütün bölmələrini əhatə edir. Burada həm teatr tarixinə, həm teatr nəzəriyyəsinə, həm də teatr tənqidinə istinad edilir. Teatrşünas aktyorun, rejissorun və ya dramaturqun həyat və yaradıcılığından bəhs edərkən, xüsusən teatr tarixinə nəzər salır.

Azərbaycan Teatr Cəmiyyəti tərəfindən müxtəlif illərdə ayrı-ayrı teatr xadimlərimiz haqqında portret kitabçalar çap edilmişdir. Bu ənənə son dövrlərə qədər yaşasa da 1960-1990-cı illər arasında daha intensiv xarakter daşımışdır. Mahmud Allahverdiyevin “Ələsgər Ələkbərovun həyat və yaradıcılığı”, “Ələsgər Ələkbərov”, “Mirzəağa Əliyev”, Mehdi Məmmədovun “Hüseyn Ərəblinski”, “Onun sənət ulduzu” (Hökümə Qurbanova), Tofiq Kazımovun “Ağasadıq Gəraybəyli”, “İsmayıl Osmanlı”, “Məmmədəli Vəlixanlı”, Zəfər Nemətov və Tofiq Kazımovun “Əliağa Əliyev”, Atababa Hacıbabayevin “Rza Əfqanlı”, Adil Babayevin “Leyla Bədirbəyli”, “Lütfəli Abdullayev”, “Ağahüseyn Cavadov”, İsmayıl Dağıstanlının “Möhsün Sənani”, Qulam Məmmədlinin “Hüseyn Ərəblinski”, “Cahangir Zeynalov”, Tələt Əyyubovun “Hökümə Qurbanova”, “Mərziyə Davudova”, Adilə İsmayılovanın “Nəsibə Zeynalova”, “Nehrəmli qız” (Zəroş Həmzəyeva), Tofiq Abdinin “Bəşir Səfəroğlu”, Adilə Əliyevanın “Əli Qurbanov”, Əliheydər Ələkbərovun “Sona Hacıyeva”, Fatma Hüseynovanın “Məhluqə Sadıqova”, Elmira Əliyevanın “İsmayıl Dağıstanlı”, Rəşid Qazıbəyov və Cəlil Vəzirovun “İbrahim Həmzəyev” və digər portret monoqrafiyalar əsasən 1960-

1990-cı illər arasında Azərbaycan Teatr Cəmiyyətinin sifarişi ilə hazırlanmışdır. Bu portret monoqrafiyalarda daha çox sənətçinin yaradıcılıq aləminə, oynadığı obrazların xronoloji illərə uyğun düzülüşünə, xarakter xüsusiyyətlərinə yer verilmişdir.

1980-ci illərdən etibarən teatrşünaslığın inkişafı yeni mərhələyə qədəm qoydu. Belə ki, klassik tərzdə yazılan məqalələr, monoqrafiyalarla yanaşı, kifayət qədər dolğun icmal məqalələr, resenziyalar ərsəyə gəldi. Bu mərhələdə teatrşünaslığın yaradıcılıq arsenalında portret janrının müxtəlif nümunələri müşahidə edildi. Bəlli olduğu kimi, portret yazıda obyektin dərin analizi, yaşadığı mühit, cəmiyyətdə tutduğu yer və s. kimi xüsusiyyətlərlə yanaşı, sənətçinin ifaçılıq xüsusiyyətləri, yaradıcılıq palitrası da öz əksini tapır. Bu zaman hər hansı yaradıcı insanın səhnə fəaliyyətinin professional təhlili, onun yaradıcılığının özəl xüsusiyyətləri nəzərdən keçirilir. Habelə, teatrın inkişafı, dövrün ictimai və mədəni mühiti və cəmiyyətin sosial-siyasi vəziyyəti portretlərin nəzəri-estetik məzmununa əhəmiyyətli təsir göstərir. Məsələn, XX və XXI əsrlərdə yazılan portretlər, monoqrafiyalar, məqalələr arasında üslub, ifadə, təqdimat baxımından açıq-aşkar fərq var.

Teatrşünaslıqda portret janrının inkişaf dinamikasına nəzər yetirərkən konkret dövrlərə uyğun olaraq yazılan portret məqalə, resenziya və monoqrafiyaların tarixi konteksdən, zamana görə inkişafı və ya geriliyini müşahidə etmək mümkündür. Bu gün teatr ictimaiyyəti, eləcə də teatrsevərlər tərəfindən maraqla oxunan portret-monoqrafiyaların yazılması teatrşünaslıqda bu janrın hələ də aktuallığını qoruduğunu göstərir. Son dönəmlərdə müasir dramaturgiya və beynəlxalq teatr təcrübəsinin milli teatr və teatrşünaslığa təsiri portret janrında da öz əksini tapmış, tanınmış sənətçilərin yaradıcılıqları müxtəlif, yeni təhlil metodları tətbiq edilməklə daha dərin və geniş araşdırılmış, maraqlı və fərqli portretlər yazılmışdır.

Ara-sıra jurnalistlərin, ədəbiyyatşünasların aktyor və rejissor yaradıcılığına həsr edilmiş portret janrında yazılmış monoqrafiyalarına rast gəlinsə də, bu janrın sırf teatr biliciləri tərəfindən araşdırılması peşəkar işin ortaya çıxması üçün daha məqbul sayılar. Teatrşünaslar adətən yaradıcı insanın xarakterinin, onun mürəkkəb daxili dünyasının ön plana çıxmasına, yaradıcılıqlarının dərin və hərtərəfli analizinə, cəmiyyətin ideologiyasında baş verən dəyişikliklərin onların psixoloji durumlarına təsirinə xüsusi diqqət yetirirlər. Portret müəllifləri faktlara əsaslanmaqla yanaşı, subyektin yaradıcılığında və şəxsi həyatındakı nüansları özünəməxsus obyektivlik və peşəkarlıqla təqdim edirlər. Müəllif öz baxış bucağından yaradıcı şəxsiyyətinin istər fərdi, istərsə yaradıcılıq portretinin açılmasında onun daxili duyğularının və psixoloji vəziyyətinin əks olunması olduqca mühim rol oynayır.

Çağdaş teatr tarixində Azərbaycan teatrşünaslarından İlham Rəhimlinin Zəfər Nemətov və Azər Paşa Nemətova həsr edilmiş “Kəsişən paralellər”, İsrafil İsrafilovun Tofiq Kazımov haqqında “Zaman, rejissor, poetika”, “Adil İsgəndərovun teatrı”, Məryəm Əlizadənin Tofiq Kazımova həsr olunmuş “Dördüncü ölçünün rəngləri”, Aydın Talıbzadənin Mehdi Məmmədov haqqında qələmə aldığı “Mehdi müəmması və sənətdə hamletizm”, Ramiz Həsənoğlu haqqında yazdığı “Ustad və ayna” portret monoqrafiyaları klassik yazı tərzindən fərqli olaraq daha səmimi və elmi-bədii üsubda

işlənmişdir. Bu portret monoqrafiyalarda arxiv sənədlərinə əsaslanaraq sənətçinin teatr tarixində yaratdığı əsrarəngiz sənət yoluna nəzər yetirilmişdir. Həmçinin, sənətçinin xarakter xüsusiyyətlərini, şəxsi keyfiyyətlərini üzə çıxaran məqamlara toxunulmuşdur. Müəlliflər aktyor, rejissor sənətinin tarixi haqqında müfəssəl biliklərdən çıxış edərək, öz dəst-xətlərinə uyğun sənətkarların maraqlı portretlərini yaratmışlar.

Milli səhnəmizin ayrı-ayrı xadimləri haqqında portret məqalələrə XIX əsrin sonlarından başlayaraq rast gəlsək də, bu ənənə XX əsrdə teatr tədqiqatçıları tərəfindən davam və inkişaf etdirildi. Azərbaycanda portret janrında yazan müəlliflər sırasında yalnız teatrşünaslar deyil, həmçinin aktyor, rejissor və dramaturqlar da vardır. Yaşadığımız əsrdə portret janrının inkişaf dinamikasına nəzər yetirərkən çağdaş dövrdə bu janrda yazılmış, üslub baxımından daha müasir və mükəmməl məqalələr, kitablar nəzəri cəlb edir. Milli teatrşünaslıqda portret janrının yeri zaman-zaman taraz olmasa da, daim bir janr olaraq öz varlığını qoruyub saxlamışdır.

Apardığımız araşdırmalar belə qənaətə gəlməyə əsas verir ki, portret janrında yazan müəllif həm dövrün ictimai-mədəni reallığını, həm də bədii-estetik meyarlarını nəzərə almalıdır. Ümumiyyətlə, bir küll halında götürsək, portret janrı geniş araşdırma, təhlil, qiymətləndirmə kimi keyfiyyətlərlə zəngin olduqda, müəllifin həmin şəxsin həyatdakı vətəndaşlıq mövqeyinə, yaşam və yaradıcılıq fəlsəfəsinə professional toxunuşu sayəsində portret yazı oxucu tərəfindən daha maraqla qarşılanır.

## Ədəbiyyat siyahısı

1.Talıbzadə A.A . Teatr tənqidi üzrə seminar kitabı- Bakı-2018 “ADMİU” mətbəəsi
2.Haqverdiyev Ə.Ə. Seçilmiş əsərləri - Bakı – 2005. “Lider Nəşriyyat”
3.Cabbarlı C.Q. - Seçilmiş əsərləri IV cilddə - Bakı -2005. “Şərq Qərb”

**Ламия Эхтибар Исрафилова**

## МЕСТО ПОРТРЕТНОГО ЖАНРА В ТЕАТРАЛЬНОЙ НАУКЕ

**Резюме:** В статье рассматривается современное состояние и место портретного жанра в азербайджанском театроведении. Автор пытается создать картину портретного жанра в национальном театроведении, анализируя портреты, статьи и монографии о деятелях искусства, сыгравших особую роль в истории нашего театра.

**Ключевые слова:** Азербайджанский театр, театроведение, портрет, статья, монография, актер, режиссер.

**Lamiya Etibar Israfilova**

## THE PLACE OF THE PORTRAIT GENRE IN THEATRE STUDIES

**Summer:** The article deals with current situation and place of portrait genre in Azerbaijan theatre science. The author tries to create the view of portrait genre in the national theatre science by investigating articles and monographs written about masters who play a special role in our theatre chronicle.
**Keywords:** Azerbaijani theatre, theatre studies, portrait, article, monograph, actor, director.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 06.11.2024**